# Bahar duyğuları



Əvəz Mahmud Lələdağ

## Gəlişin duyulur, a nazlı bahar

Gəlişin duyulur, a nazlı bahar,
Gəl oxşa çölləri xoş nəfəsinlə.
Axsın dodağından şirin laylalar,
Oyansın təbiət həzin səninlə,
Gəl oxşa çölləri xoş nəfəsinlə.

Sənin gəlişində nə təmtəraq var,
Gəl çapsın atını dəli dağ seli.
Gəl, mənim sevimli gəncliyim, bahar,
Gəl bəzə yenidən çəməni, çölü,
Gəl çapsın atını dəli dağ seli.

Gəl açsın qönçələr bahar çiçəyi,
Ötsün budaq-budaq bağçada quşlar
Bizi darıxdırır qışın köynəyi,
Gəl, dağlar geyinsin yamyaşıl paltar,
Ötsün budaq-budaq bağçada quşlar.

Gəl ki, gülüşündən şəkər süzülsün,
Gəl salxım söyüdlər göyərsin yenə,
Gəl ki, pişvazına güllər düzülsün.
Hər canlı könlünü bağlamış sənə,
Gəl salxım söyüdlər göyərsin yenə.

Bahar, sən gələndə oyanır torpaq,
Dağda şimşək çaxır, göy nərə təpir.
Yerdə ot göyərir, ağacda yarpaq.
Duman göy otlara mirvari səpir,
Dağda şimşək çaxır, göy nərə təpir.

Səmada cərgəylə buludlar axır,
Elə bil sahildən buz qopub gedir.
Torpağın üstünə yeni gül çıxır,
Çən-duman dağları bir də sehr edir.
Elə bil sahildən buz qopub gedir.

Üfüqdən aramla boylanır günəş,
Yasəmən oynayır, nərgiz əl çalır,
Lalənin yanağı atəşdir-atəş,
Könül bu hikmətdən min ilham alır,
Yasəmən oynayır, nərgiz əl çalır.

## Gətir bahar

Xoş gəlmisən
Qədəmlərin
Çox Mübarək
ay baharım.
Gəl mənimlə bu dərdi çək,
ay baharım.
Üzür məni hicran dağı,
Qaytar mənə Gözəldağı,
Ulularin uyuduğu o torpağı,
ay baharım!
Gəl, əsirin intizarım,
ay baharım.
Fərəh, sevinc gətirərdin
Obamıza, elimizə.
Şirin gülüş gətirərdin,
bizim könül evimizə.
Qayıt yenə o çağlara.
Bizə təzə nübar gətir,
Harda yaxşı nə var, gətir.
Bircə udum dağ havası,
Bircə qurtum bulaq suyu,
Bir çəngə də bulud gətir.
Qatıq gətir, qaymaq gətir,
Süzmə gətir, qurud gətir,
Əyriqardan kəklikotu,
Ərimızdən qar çiçəyi.
Yargələndən yarçiçəyi,
Göbəkdaşdan şirin yemlik,
Üçtəpədən quşəppəyi,
Bir dəstə də Novruzgülü
Bir də mənə gənclik ili
Gətir, bahar...
Darıxıram, tez gəl, bahar.
Şəlalə saçlarını uzatsın ,
Pöhrələr böyüsün, ərsəyə çatsın.
Açılsın güllərin qönçəsi,
Nişanlı qızların xonçası tək.
Coşsun məhəbbət dolu ürək.
Nur ələnsin göy otların üstünə,
Arılar şəbnəm içsin
Çiçək piyalələrdən.
Qızlar çələng toxusun
Qırmızı lalələrdən.
Gözəllik yağır üzündən, gözündən
Çörək ətri gəlir səndən.
Səndə təzə nübar, şirin bar,
Sevgi aləmi var.
Səndən doymaq olarmı,
Sənə bərabər varmı?

## Qar çiçəyi

Qarçiçəyi haray salır,
Novruz gəlir, Novruz gəlir.
Buludların gözü dolur,
Novruz gəlir, Novruz gəlir.

Günəş yerə göz-qaş atır,
Şimşək dağda at oynadır.
Çölə-düzə xəbər çatır,
Novruz gəlir, Novruz gəlir.

Əriyir qar, keçir boran,
Yapıncıdan çıxır çoban.
Qəh-qəh çəkib gülür hər yan,
Novruz gəlir, Novruz gəlir.

## Gəldin

Qışın köynəyini cıran baaharım,
Çəmənimə gəldin, çölümə gəldin.
Sənsiz darıxmışdı göy yaylaqlarım,
Yaylağıma gəldin, elimə gəldin.

Çöllər yaz ətirli küləklə doldu,
Bağların qucağı çiçəklə doldu.
Ürəyim yenidən diləklə doldu.
Yaşılbaş sonalı gölümə gəldin.

Gəldin saçaqlandı nərgiz, yasəmən,
Səmtini dəyişdi dağda duman, çən.
Yemliyə, yarpıza tamarzıyam mən,
Göbələk dəymirdi dilimə, gəldin.

## Çaldağım

Çox şeylərin özü yoxdur adı var.
A Çaldağım, Buzovyalın qırovu,
Ütük baba buraxmazdı bir ovu,
Xıdırnəbi pişiklərin murrovu,
Qovurğanı kirkirədə çəkərdik,
Qovudunu şirin südə tökərdik.

A Çaldağım, "baca-baca" çatanda,
El-obamız qəm-qüssəni atanda,
Göyün gözü xumarlanıb yatanda,
Biz də durub ağacatı yallardıq,
Bacalardan uzun torba sallardıq.

Süfrəmizdə yeddi löyün olardı,
Cavan qızlar suya iynə salardı.
Çoxlarının bəxt ulduzu yanardı,
Mürgü vurub gözümüzü yumardıq,
Sübhdən durub su üstünə cumardıq.

Əlimizi, üzümüzü yuyardıq,
Cibimizə bulaq daşı qoyardıq.
Bədnəzərin baxışını oyardıq,
Ağırlığım, uğurluğum tökülsün
Canımızda olan dərdllər çəkilsin.

## Olur

Əcəb toy-büsatdır sənin gəlişin,
Təbəssüm dodağın həmdəmi olur.
Al yanaq qızların şirin gülüşü,
Sevən könüllərin məlhəmi olur.

Günəşin zərrəsi qızdırır yeri,
Budaqlar, pöhrələr bir boy da atır.
Torpağa qarışır məhəbbət təri,
Səninlə arzular vüsala çatır.

Daha parlaq olur sübhün çırağı,
Qoyur əmməllərin dağı dağ üstə.
Bağbanın nəfəsi isidir bağı,
Yüz yarpaq göyərir hər budaq üstə.

Çəmən sürmə çəkir qar sularından,
Bir Çoban bayatı mələyir tütək.
Dağların o zümrüd yamaclarından,
Sürülər asılır boyunbağı tək.

## Gözəlləşsin

Açılsın baxçanın, bağın bənizi,
Muncuq tumurcuqlar cavahirləşsin.
Bürüsün bağları quşların səsi,
Nəğmə gözəlləşsin söz gözəlləşsin.

Ana təbiətin xonçalı qızı,
Elimə, obama ülviyyət versin.
Elin mərcan qızı, xonçalı qızı,
Bu ana yurduma min ziynət versin.

Şairin dilində söz təzələnsin,
Fikirlər, sevinclər, gülüşlər təzə.
Baxış təzələnsin, göz təzələnsin,
Gedişlər, gəlişlər, görüşlər təzə.

## Bahar gələndə

Həyətdə, bacada tonqal çatılar,
Ağırlıq, uğurluq oda atılar.
Yel qanadlı olar ağac atlılar,
Bahar gələndə.

Kin əriyər, küsülülər barışar,
Şadlıq, sevinc bir-birinə qarışar.
Duyğularım gözəlliyə qovuşar,
Bahar gələndə.

Qışın ağ cunası zirvədə qalar,
Bəyaz buludların gözləri dolar.
Təbiət sazında min hava çalar,
Bahar gələndə.

Şəlalə nazlanar, çeşmə çağlayar,
Qayalar kəkliyə xına saxlayar.
Ellər yaylaqlarla ülfət bağlayar,
Bahar gələndə.

Bülbül cuşa gələr, qartal qıy vurar,
Marallar ünnəşib gədikdə durar.
Sellərin atını dərələr yorar,
Bahar gələndə

Göyün bərəkəti torpağa axar,
Ay Yerin hüsnünə həsrətlə baxar.
Xəyalım aləmin sehrinə çıxar,
Bahar gələndə.

Küləyin sığalı telimdə qalar,
Çiçəkli çəmənlər beşiyim olar.
Yarpızlı bulaqlar laylamı çalar,
Bahar gələndə.

Eşqimə nur səpər yazın yağışı,
Könlümü bəzəyər sevgi naxışı.
Canıma od salar bir qız baxışı,
Bahar gələndə.

## Könlümdən nələr keçir

Sübhün şəfəqi yana üfüqün yanağında,
Günəş gözəl görünə qızıl çanağında!
Saçaq-saçaq telini səpə yerin üzünə,
Göylərin sovqatını torpaq təpə gözünə.
Bahar yaşıl xalını döşəyə yal-yamaca,
Göyün bağrı deşilə, açıla nurlu baca.
Nur ələnə yuyula bağ-baxçanın bənizi,
Gülüstana bürüyə gözəlliyin dənizi.
Ağaclar köynəyini suya çəkib quruda,
Torpağın üzü gülə, dərdi-qəmi unuda.
Şirin yemlik, əvəllik cücərə, çıxa üzə,
Yarpız ağbaldır ola sularda üzə-üzə.
Daşaltı gicirtkanı sığallaya sərin meh,
Quzqulağın tacında xumarlana inci şeh.
Baldırğan özəkləyə, qanqal həvəsə gələ,
Quşəppəyi şivləyə, göbələk yeri dələ.
Qazağayı, məravcə, kişniş yeməli ola,
Bu sevincdən, fərəhdən güllərin gözü dola.
Şomu, cırış gətirə Narxanımın gədəsi,
Yamanca dadlı olur cincilimin kətəsi.
Səbzi də özgə aləm, qırxbuğuma qatasan,
Küllü sacın altında bir gün ocaq çatasan.
Kətə bişirən qızla əlaqə saxlayasan,
Təzə nehrə yağıyla kətəni yağlayasan.
Naçəsini götürüb yollanasan çadıra,
Kətənin yağı dama, üt-başını batıra.
Boz sürülər yaylağın sinəsinə yayıla,
Dələmə torbaları təmiz-təmiz yuyula.
Nənələr süd sərələr gərdəkli nəmilərdə,
Bin-bərəkət qaynayar nənələr olan yerdə.
İgid ərlər-oğullar baharın oğlan çağı,
Halal zəhmət təriylə yoğurarlar torpağı.
Ana torpaq güc verə, toxum çatlaya yerdə,
Möcüzəli bir aləm açıla pərdə-pərdə.
Torpaq halallıq sevir, torpaq halaldan, halal,
Qayğını torpağa çək, sərvətini torpaqdan al.
Sən torpağın bətninə bir cavahir salarsan,
Əvəzində torpaqdan min cavahir alarsan.
Günəş yeri şən görüb salamlaya baharı,
Əriyə könüllərin intizarı, qubarı !..